# Pambıqçılığın inkişafı əsas hədəflərdən biri kimi

## Respublika müşavirəsində səsləndirilən fikirlər bu vacib sahənin inkişafı üçün mühüm addımlar atılacağından soraq verir

**Sentyabrın 17-də Sabirabadda Prezident İlham Əliyevin sədrliyi ilə pambıqçılığın inkişafı məsələlərinə dair respublika müşavirəsi keçirilib. Prezident müşavirədə pambıqçılıq sahəsində görülən və görüləcək bir çox işlər haqqında danışıb.**

Dövlət başçısı çıxışında bəzi statistik göstəriciləri xatırladıb: "Ulu öndər Heydər Əliyev 1969-cu ildə Azərbaycana rəhbər seçiləndə respublikada pambığın istehsalı 300 min ton idi, 1981-ci ildə isə bir milyon 15 min tona çatmışdır. Yəni, 10 il ərzində pambıq istehsalı 3 dəfədən çox artdı. Heydər Əliyev Azərbaycandan Moskvaya gedəndən sonra hər sahədə olduğu kimi, pambıqçılıq sahəsində də tənəzzül dövrü başlamışdır və bu, statistikada özünü göstərir. Artıq 1985-ci ildə Azərbaycanda pambıq istehsalı 1 milyon tondan 780 min tona düşmüşdür. Ondan sonra tənəzzül daha da sürətlə getmişdir. Qeyd etdiyim kimi, nəticədə, keçən il cəmi 35 min ton pambıq yığılmışdır ki, bu da ən aşağı göstəricidir".

### "GƏLƏN İL ÜÇÜN BİZİM DAHA DA BÖYÜK PLANLARIMIZ VAR"

Prezident İlham Əliyevin sözlərinə görə, keçən il cəmi 18 min hektarda pambıq əkilib ki, bu da pambıqçılığın məhvi deməkdir: "Bu, dözülməzdir və artıq ciddi tədbirlər görülür. Düzdür, biz bu il bir az gecikmişik. Ancaq bu il yenə də yaxşı nəticələr gözlənilir. Bu il bütövlükdə 51 min hektar sahədə pambıq əkilib. Keçən illə müqayisədə bu, təxminən üç dəfə çoxdur.

Əgər keçən il 35 min ton pambıq yığılıbsa, bu il ən azı 100 min ton pambıq yığılmalıdır. Gələn il üçün bizim daha da böyük planlarımız var. Gələn ilə hazırlıq işləri artıq başlayıb. Bu il buna böyük vəsait sərf olunub, operativ olaraq bütün lazımi tədbirlər görülübdür. Suvarma ilə, elektrik enerjisi ilə bağlı tədbirlər görülüb, yeni pambıqyığan kombaynlar, minlərlə adda kənd təsərrüfatı texnikası gətirilib və bəzi texnikalar hələ ki, yoldadır. Gələn ay onlar da gəlib çatacaq və 2017-ci ildə də gətiriləcək. Dünyada iqtisadi böhranın davam etdiyi indiki şəraitdə gəlirlərimiz 3-4 dəfə azalıb. Buna baxmayaraq, biz yenə də kənd təsərrüfatı texnikası alıb fermerlərə güzəştli şərtlərlə vermək üçün yüz milyonlarla dollar vəsait xərcləyirik ki, onlar da pul qazansınlar və dövlətə də bunun xeyri olsun".

Pambıqçılığın inkişafı həm də xeyli sayda yeni iş yerlərinin açılmasına gətirib çıxaracaq. Bu da daha çox kəndlinin işlə təmin olunması deməkdir. Prezident müşavirədə bu haqda da danışıb. Bildirib ki, pambıqçılığın inkişafı iqtisadi məsələlərin həlli ilə yanaşı, eyni zamanda, sosial məsələdir: "Mənə verilən məlumata görə, bu il 24 rayonda pambıq tarlalarında 70 minə yaxın insan işləyəcək və bu, məşğulluğun artırılması deməkdir. Pambıqçılığın inkişafı yeni iş yerlərinin yaradılması deməkdir".

Ölkə başçısı daha sonra qeyd edib ki, gələn il pambıq əkin sahələri daha da artacaq və beləliklə, işləyənlərin sayı da artmalıdır: "Gələn il pambıqçılıq 100 mindən çox iş yerinin yaradılmasına gətirib çıxaracaq. Biz əkin sahələrini genişləndirdikcə bu rəqəm daha da artacaq. Əgər biz gələcəkdə 200 min hektarda pambıq əkəcəyiksə, bu, təqribən 350-400 min insanın işlə təmin edilməsi deməkdir".

### PAMBIĞIN QİYMƏTİ ARTA BİLƏR

Qeyd edək ki, pambıqçılığın inkişafına mane olan, əhalinin bu sahəyə marağını azaldan əsas faktorlardan biri də məhsulun qiymətinin çox aşağı olması idi. Fermerlərin pambıq əkinində maraqlı olmasını stimullaşdırmaq üçün də ilk olaraq qiymətlərin qaldırılmasına ehtiyac var idi. İlk olaraq bu il pambığın alış qiyməti 20 faiz qaldırıldı. Amma dövlət başçısı bildirib ki, qiymət mümkün olan qədər qaldırılmalıdır.



O qeyd edib ki, qiymətlərin artırılması fəhlələr üçün daha yaxşı olacaq: "Ona görə, mən indi müvafiq orqanlara tapşırıq verirəm ki, - Prezident Administrasiyası, Kənd Təsərrüfatı, İqtisadiyyat nazirlikləri, pambıqla məşğul olan firmalar da baxsınlar, - biz nə qədər mümkünsə, əlbəttə, alış qiymətini qaldırmalıyıq".

İlham Əliyev deyib ki, qiymət məsələsi elə tənzimlənməlidir ki, əhalinin gəliri yaxşı olsun, amma eyni zamanda bu işin iqtisadi səmərəliliyi də diqqətdə olmalıdır: "Pambığın alış qiyməti 40 qəpikdən 50 qəpiyə qaldırıldı. Əlbəttə ki, çox ciddi artımdır. Ancaq baxmaq lazımdır ki, bu işlərlə məşğul olaraq alış qiymətini bir daha qaldıraq. Burada əlbəttə ki, insanların gəlirləri xüsusi diqqət mərkəzində olmalıdır. Eyni zamanda, bu işin iqtisadi səmərəliliyi təmin edilməlidir".

Təkcə qiymətin qaldırılması əhalinin pambıq əkməyə marağını artırmaya bilər. Ölkə başçısı deyib ki, pambıqçılığın inkişafının stimullaşdırılması üçün əlavə tədbirlərin görülməsinə ehtiyac var. Onun sözlərinə görə, bunun üçün müxtəlif işlər görülüb, amma əhalinin özünün pambıq yetişdirmək üçün həvəsli olması istiqamətində də işlərin görülməsinə ehtiyac var: "Biz bu il qısa müddət ərzində - cəmi bir neçə ayda inzibati yollarla böyük işlər gördük, texnikanın cəlb edilməsi, suvarma, elektrik ilə bağlı məsələləri operativ qaydada həll etdik. Ancaq biz elə etməliyik ki, kəndlilər özləri də maraqlı olsunlar. Belə olan halda əlbəttə ki, biz daha da çox məhsul əldə edəcəyik".

1970-80-ci illərdən fərqli olaraq, hazırda müasir texnikanın kənd təsərrüfatında məhsuldarlıq əldə etməkdə rolu böyükdür. Ona görə də hazırda bu texnikaları cəlb etməklə daha çox məhsuldarlıq əldə etmək imkanımız var. Prezident pambıqçılıqla bağlı məhsuldarlıq məsələsinin gündəlikdə olduğunu vurğulayaraq bildirib ki, məhsuldarlığı artıra bilərik: "Bu gün dünyada daha müasir texnologiyalar var və biz o texnologiyaları Azərbaycana gətiririk və gətirməliyik ki, məhsuldarlıq daha artsın. Əgər keçən il hektardan məhsuldarlıq 20 sentner idisə, hesab edirəm ki, biz görüləcək tədbirlər nəticəsində bunu təqribən 30-35, bəlkə də 40 sentnerə qaldıra bilərik".

### "TEXNİKA İLƏ TƏMİNAT DAHA DA YAXŞI OLMALIDIR"

Prezident deyib ki, bu il pambıqçılığın sürətli inkişafı üçün 3700 kənd təsərrüfatı texnikası alınıb. Onlardan 100-dən çoxu pambıqyığan kombayndır. Əlavə 100-dən çox kombayn isə oktyabr ayının birinci yarısında ölkəmizə gətiriləcək: "Gələn il isə 60 kombayn gətiriləcək. Müşavirədə bəzi çıxışlarda səsləndi ki, texnika ilə təminat daha da yaxşı olmalıdır. Bütün bu işlər nəzərə alınıb və dövlət büdcəsindən bu məqsədlər üçün kifayət qədər böyük maliyyə vəsaiti, özü də valyutada olan maliyyə vəsaiti ayrılıb".

Prezident gələn il üçün daha çox pambıq istehsalının planlaşdırıldığını deyib: "Keçən il cəmi 35 min ton pambıq yığılmışdır ki, bu da ən aşağı göstəricidir. Bu il görülən tədbirlər nəticəsində biz ən azı 100 min ton pambıq tədarükünü gözləyirik, əgər məhsuldarlıq 20 sentner ətrafında olarsa. Burada çıxışlarda digər rəqəmlər də səsləndi. Biz bəzi yerlərdə 20 sentner, bəzi yerlərdə ondan da çox məhsuldarlıq əldə edə bilərik. Ona görə, bu rəqəmlər təbii ki, şərtidir. Biz mövsümün sonunda bu məsələlərlə bağlı tam dolğun mənzərə hasil edəcəyik. Gələn il üçün daha da böyük istehsal gözlənilir, əgər məhsuldarlıq 20 sentner səviyyəsində olarsa. Mən hesab edirəm ki, daha da çox olmalıdır. Gələn il 200 min tondan çox pambıq istehsal ediləcək. Mən heç bir rəqəm səsləndirmək istəmirəm. Heç bir xüsusi göstəriş vermək istəmirəm, onu həyat göstərər. Amma biz bilməliyik ki, pambığın istehsalını hansı ardıcıllıqla artırmalıyıq. Hesab edirəm ki, 2017-ci ildə əgər bütün tapşırıqlar yerinə yetirilərsə, - belə də olmalıdır, - biz 250 min, hətta 300 min ton pambıq istehsal edə bilərik".

### "TORPAQLARIN MÜNBİTLİYİ İLƏ BAĞLI TƏDBİRLƏR GÖRÜLMƏLİDİR"

Pambıqçılığın ildən-ilə inkişaf etdirilməsi, hər növbəti il daha çox məhsul əldə etmək üçün bu sahədə görülən işlər də sistemli olmalıdır. Dövlət başçısı çıxışında bildirib ki, pambıqçılığın inkişafı ilə bağlı uzunmüddətli strategiya üzərində iş gedir: "İlkin rəqəmlər var. Əlbəttə, onlar dəqiqləşdirilməlidir ki, biz burada səhvə yol verməyək. Ancaq ilkin hesablamalar onu göstərir ki, əgər biz bu yolla getsək, - əlbəttə, gedəcəyik, - və lazımi maliyyə təminatı olarsa, 2020-ci ildə təqribən 200 min hektarda pambıq əkə bilərik. Yəni, biz bunu əsas hədəf kimi götürərək bütün lazımi işləri bu istiqamətdə aparmalıyıq. Gözlənilən məhsuldarlıqla bağlı yəqin ki, bu gün danışmaq bir qədər tezdir. Ancaq bu hesablamalar da aparılmalıdır və onlar görüləcək tədbirlər üzərində qurulmalıdır".

Məhsuldarlığın bol olması həm də torpağın münbitliyindən asılıdır. Ölkə başçısı bu məsələni də diqqət mərkəzinə gətirərək bildirib ki, torpaqların münbitliyi ilə bağlı tədbirlər görülməlidir: "Münbitliyin və məhsuldarlığın artırılması üçün növbəli əkin sisteminə keçməliyik - pambıq, yonca, taxıl. Bunu kənd təsərrüfatı mütəxəssisləri yaxşı bilirlər. Növbəli əkin sisteminə keçmək üçün əlbəttə ki, həm mövcud torpaq fondu, həm də gələcək torpaq fondu dəqiqliklə müəyyən edilməlidir. Çünki gələcəkdə torpaq fondu böyük dərəcədə artacaq. Bu, bəzi çıxışlarda səsləndi. Mən bu təklifləri dəstəkləyirəm ki, növbəti mövsümdə biz əkin sahəsinə görə deyil, yığılan məhsula görə subsidiya verməliyik. Aidiyyəti qurumlar indidən bu məsələni işləsinlər, hazırlasınlar, təkliflər versinlər. Bu, daha da məqsədəuyğun və ədalətli olacaq".

### KƏND TƏSƏRRÜFATINDA VƏ SUBSİDİYALARDA RAYONLAŞMA...

Fermer və sahibkarlar üçün dövlət tərəfindən güzəştli şərtlərlə verilən kreditlərin onların görəcəkləri işlər üçün əhəmiyyəti böyükdür. Amma pambıq əkini ilə məşğul olanlar üçün belə bir kredit hələ ki verilməyib. Prezident bildirib ki, fermer və sahibkarlara bağlı müsbət təcrübəni nəzərə alaraq pambıqçılığın inkişafına da güzəştli kreditlər verilməlidir: "Əvvəllər bu, olmayıb. Yəni, bu ildən İqtisadiyyat Nazirliyi bunu nəzərə alsın və sonra mənə ayrıca məruzə edəcək ki, ayrılmış kreditlərin neçə faizi pambıqçılığın inkişafına gedəcək".

Bu il diqqət məsələsində olan məsələlərdən biri də torpaqlardan səmərəli istifadənin təmin olunmasıdır. Bu mövzuya toxunan ölkə başçısı bildirib ki, mövcud torpaq fondunun nə qədər olduğu bəllidir. Buna görə də istifadəsiz torpaqlar dövriyyəyə qaytarılmalıdır.

Prezident kənd təsərrüfatında rayonlaşma məsələsindən də danışıb: "Hansı rayonda hansı məhsullar daha çox gəlir gətirir, daha çox sərfəlidir. Biz buna da baxmalıyıq, müvafiq göstərişlər verilib. Hesab edirəm ki, biz subsidiyalarla bağlı da artıq rayonlaşma sisteminə keçməliyik. Mən bu yaxınlarda Masallı rayonunda idim. Orada icra başçısından soruşdum ki, sizdə indi taxılçılıqda məhsuldarlıq nə qədərdir, dedi hektardan 20 sentner. Bizdə ölkə üzrə bu göstərici 30 sentnerdir. Amma elə təsərrüfatlar var ki, yeni texnologiyalara və iqlim şəraitinə görə hektardan 40-50 sentner taxıl götürülür. Ona görə, bəlkə də Masallıda taxılçılığa subsidiya vermək lazım deyil, tərəvəzçiliyə, çayçılığa vermək lazımdır".

**Aygün Əhmədova**